NƏSİMİ İLİ:

# Klassik ədəbi irsə müasir baxış, milli və bəşəri ideyaların təbliği

**Azərbaycan klassik poeziyasının ən görkəmli nümayəndələrindən biri İmadəddin Nəsimi yaşadığı dövrdə bütün Şərqdə məşhur idi. Onunla bir dövrdə yaşamış poeziya bilicilərinin təbirincə desək, "aşarı ilahi vergisi idi, insanın ürəyinə işləyirdi."**

Seyid Əli Seyid Məhəmməd oğlu-İmadəddin Nəsimi 1369-cu ildə Şamaxıda dünyaya gəlib. Əsrinin böyük mütəfəkkiri olan şairin doğulduğu yer haqqında zaman-zaman müxtəlif fikirlər səslənib. Onun Təbrizdə, Gəncədə, Dərbənddə, Anadoluda, Naxçıvanda, Şəkidə, Qarabağda anadan olduğunu iddia edənlər olub. Bu iddialar böyük şairə insanların sonsuz məhəbbətindən doğurdu. Lakin tədqiqatçı alimlərin gəldiyi son nəticə təsdiq edib ki, şair Şamaxıda dünyaya gəlib, həyat və yaradıcılığının bir hissəsi bu şəhərlə bağlıdır. Lirik-fəlsəfi şairdir. Yaradıcılığa "Hüseyn" təxəllüsü ilə başlayıb. Sufiliyin ideoloqu Mənsur Həllacın fəlsəfi görüşlərini təbliğ edib. Tarixi mənbələrdə verilən məlumata görə Nəsiminin şeirlərində tez-tez işlətdiyi "Ənəlhəqq" ifadəsini ilk dəfə Mənsur Həllac işlədib. Gənc İmadəddin hürufiliyin müctəhidi şeyx Fəzlullah Nəiminin yaxın dostu, hürufi təriqətinin fəal təbliğatçısı olub. Nəiminin adına uyğun olaraq özünə Nəsimi təxəllüsü götürüb.

Mənbələrdə göstərilir ki, Nəsimi Şamaxıda mədrəsədə təhsil aldıqdan sonra hürufi Fəzlullah Nəimini özünə mürşid qəbul edərək onun tərbiyə və təlimlərindən bəhrələnib. Səfərlərinin hamısında mürşidi Fəzlullah Nəimi ilə yol yoldaşı olub və onun qızı ilə evlənib.

O, klassik Şərq və qədim yunan fəlsəfəsini, habelə ədəbiyyatını dərindən öyrənib. Şairin əsərlərinin təhlili göstərir ki, Nəsimi Şamaxıda o dövrün ən yaxşı məktəblərinin verdiyi bilikləri mənimsəyib, İslamın və xristianlığın əsaslarına dərindən bələd olub, tibb, astronomiya və astrologiya, riyaziyyat və məntiq elmlərinin əsaslarına yiyələnib. O, xarici dilləri elə yaxşı öyrənmişdi ki, doğma dilimizlə bərabər fars və ərəb dillərində eyni səviyyədə gözəl şeirlər yaza bilirdi. Onun Azərbaycanca yazdığı şeirlərinin dili həm zənginliyi, həm də xalq nitqinə yaxınlığı ilə seçilir, atalar sözləri, zərb-məsəllər, hikmətli sözlər burada çoxluq təşkil edir. Nəsiminin rübailəri Azərbaycan folklorundakı bayatılara çox yaxındır.

Şairin poeziyasında Azərbaycanın, eləcə də digər Şərq ölkələrinin məşhur alim və şairlərinin adları tez-tez xatırlanır. Bunlardan İbn -Sinanı, Əfzələddin Xaqanini, Nizami Gəncəvini, Fələki Şirvanini, Mənsur Həllacı, Fəzlüllah Nəimini, Şeyx Mahmud Şəbüstərini, Əvhədi Marağayini və başqalarını göstərmək olar.

Hürufilərin Teymurləng tərəfindən ciddi təzyiqlərə məruz qaldığı bir vaxtda Nəsimi vətəndən didərgin düşüb, İraqda, Türkiyədə və Suriyada yaşamağa məcbur olub. Həyat yoldaşı Fatimə və oğlu Əli də onunla birgə Hələbdə yaşayıblar. Şair qəzəllərində nadanlığı, cahilliyi, dini fanatizmi qamçılayır, ilahi gözəlliyi vəsf edirdi. Qırx səkkiz yaşlı şair hürufilik təlimi əsasında irəli sürdüyü panteist, lakin bəşəri ideyalarına, dini fanatizmə və ehkamlara qarşı çıxdığına görə Hələb şəhərində həbs edilərək zindana salınıb.

Nəsiminin əzablı edamı haqqında salnaməçi İbn əl-İmad Hənbəli yazır: "O, hürufilərin şeyxidir, Hələbdə sakin idi, tərəfdarları çoxaldı, bidəti artdı, iş o yerə çatdı ki, sultan onun öldürülməsini əmr etdi, boynu vuruldu, dərisi soyuldu, çarmıxa çəkildi".

Kinofilmdə özünün də söylədiyi kimi Nəsimi ömrünün yarısını padşah zindanlarında keçirib. Yalnız həyatının son illərini Suriyanın Hələb şəhərində yaşayıb. 1417-ci ildə Misir sultanının əmri ilə "bidətlərinə " görə həbs edilib. Şəriət qanunlarına görə "dinsiz", "kafir" adlandırılıb və dini fətvanın hökmü ilə diri-diri soyulub.

Zahidin bir barmağın kəssən dönüb həqdən qaçar,

Gör bu gerçək aşiqi sərpa soyarlar, ağrımaz,-

deyən şair əqidəsi yolunda heç bir işgəncə qarşısında əyilmədiyini, öz yolundan dönmədiyini, verilən əzablara mərdliklə sinə gərdiyini sübut edib. Əksinə, bu şeirində onu ittiham edənlərin özlərini cəsarətlə ittiham edib.

*Soydular, çıxardılar başdan-ayağa pustumu,*

*Aşiqəm, ah eyləməm, qurbanə xoşdur, yaxşıdır.*

*Həm soyan, həm soyduran zahid mənəm, səndən deyil,*

*Cümlədə ayinəyəm, pünhanə xoşdur, yaxşıdır.*

*Mənsur oldum, çün bu gün aləmdə faş oldum sizə,*

*Mən ənəlhəq söylərəm, ürfanə xoşdur, yaxşıdır.*

*Şairin şeirlərinin böyük əksəriyyətində lirika, məhəbbət, ilahi gözəllik haqqında fikirlər hakimdir.*

*Yüzünü məndən nihan etmək dilərsən, etməgil,*

*Gözlərim yaşını rəvan etmək dilərsən, etməgil-*

*mətləli şeir oxucuda xoş duyğular yaradır və ya:*

*Getməyə əzm eyləmisən, ey dilaram eyləmə!*

*Həsbətən illah, məni bisəbrü-aram eyləmə!-*

*Beyti ilə başlayan şeir gözəl poetik lövhədir.*

"Dünya duracaq yer deyil, ey can, ondan səfər eylə"-deyən laməkan şairin emosional durumu, ovqatı, yaşantıları onunla izah edilir ki, çox böyük potensiala malik olub. O, daim bir yerdə qərar tutmayıb, yaşayış yerini tez-tez dəyişib, ustadının tapşırdığı kimi, hürufi elmini bütün dünyaya yaymağa çalışıb. Şagirdləri, müridləri, qohum-əqrəbası, onu sevənlər şairin yaşadığı yeri başqalarından gizli saxlayıblar, çünki o, dinsiz və kafir elan olunmuşdu və şah xəfiyyələri onu hər yerdə axtarırdılar. Şairin laməkan sayılmasının səbəbi bu idi, yəni şah üsul-idarəsini tənqid edən, Allahın insanda təcəssüm etdiyini yazır, tənqidi dini-fəlsəfi qəzəllərini yayır, amma özü gözə görünmək istəmirdi.




Nəsiminin Şahxəndan adlı böyük qardaşı vaxtsız vəfat etdiyindən bu ölüm şairi sarsıdıb, bir çox qəzəllərində onu anıb. Şahxəndan el-obada güclü nüfuza və hörmətə malik olduğundan dəfn olunduğu qəbiristanlığı da onun adı ilə "Şaxandan" (Şahxəndan) adlandırıblar. Bu qəbiristanlıq müqəddəs sayıldığı üçün dövrünün ülməaları, hörmətli şəxsiyyətləri də "Şaxandan qəbiristanlığı"nda dəfn edirdilər. Bu o zaman böyük şərəf sayılırdı. Yada salaq ki, Azərbaycan ədəbiyyatının məşhur simalarından biri olan şair Seyid Əzim Şirvani :

Mən öləndə Şaxandanda basdırın,

Çünki onun Şahidi- Xəndanı var.

-deyə bu qəbiristanlıqda dəfn olunmasını vəsiyyət edib.

İmadəddin Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan, əruz vəznində yazdığı qəzəllərində daim insanın əzəmətini, məhəbbəti, ilahi eşqi və şəxsiyyət azadlığını tərənnüm edib. Azərbaycan dilində fəlsəfi qəzəlin banisidir. Dilimizdə ilk dəfə əruz vəzninin müstəzad, mürəbbe, tərcibbənd və digər bəhrələrində mən tutumlu fəlsəfi qəzəllər yazıb. Anadilli şeir xəzinəmizin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və obrazlı şəkildə, oxşamalarla, təşbihlərlə, bənzətmələrlə daha da zənginləşməsində misilsiz xidmətləri xüsusi qeyd olunmalıdır. Şairin mənbəyini xalq ruhundan alan parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını rəngarəngliyi ilə əks etdirir. Sənətkarın yaradıcılığı bir sıra xalqların bədii-ictimai fikrinin təkamülünə qüvvətli təsir göstərib.

Şairin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması keçən əsrin yetmişinci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Digər sahələrlə bərabər ədəbiyyatımızın da inkişafına diqqət yetirən Ulu Öndərimiz 1970-ci ildə Suriyaya səfər edərkən dövlət başçısı Hafiz Əsədə Nəsiminin qəbrini ziyarət etmək istədiyini bildirir. Məzar çox çətinliklə tapılır və Ümummilli Lider Hələb şəhərinə gedir, şairin məzarını böyük ehtiramla ziyarət edir. Qeyd etmək yerinə düşər ki, şairin qərib məzarını axtarıb tapmaq və ziyarət etmək o vaxtadək əvvəlki dövlət başçılarının yadına belə düşməmişdi. Məhz həmin hadisədən sonra Nəsimi irsinin geniş araşdırılmasına başlanılıb, ilk dəfə 600 illik yubileyi UNESCO-nun tədbirləri siyahısına daxil edilib və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunub. Tədbirə 29 ölkədən alim və ədəbiyyatçı gəlib. UNESCO-nun "Kuryer" jurnalında ədib haqqında geniş məqalə gedib.

Şair qırx səkkiz illik qısa bir ömür yolunda böyük bir tarix yazaraq yaddaşlara əbədilik həkk olunub. Tarix və zaman onu unutmadı. Xidməti, əməlləri, yaradıcılığı illərin yaddaşından süzülərək bu günümüzə qədər gəlib çatıb. Qədirbilən xalqımız onu əbədiyaşar etdi. Azərbaycan ədəbiyyatı və incəsənətində Nəsiminin yaddaqalan obrazlar qalereyası yaradılıb, şairin seçilmiş əsərləri dəfələrlə nəşr olunub, orta və ali məktəblərin dərsliyində həyat və yaradıcılığı tədris olunur. Keçən əsrin yetmişinci illərində Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində işləyən ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə "Nəsimi" adlı məşhur bədii film çəkilib, həmçinin paytaxtımızın mərkəzində şairin əzəmətli heykəli ucaldılıb, görkəmli şairin adına gözəl bağ salınıb, Bakının ən böyük rayonlarından biri onun adını daşıyır. Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutu da Nəsiminin adını özündə əbədiləşdirib. Bəstəkarlarımız şairin şeirlərinə bir neçə gözəl mahnı bəstələyiblər. Bütün bunlar bir daha sübut edir ki, şairin yaradıcılığı və həyatı həmişə diqqətdə olub. 2019-cu ilin Azərbaycanda Prezident İlham Əliyev tərəfindən "Nəsimi ili" elan edilməsi də bu diqqətin məntiqi davamıdır.

Böyük şairə dərin ehtiramın nümunəsidir ki, indi ölkəmizin hər yerində Nəsiminin həyat və yaradıcılığına həsr olunan müxtəlif mədəni-kütləvi tədbirlər keçirilir. Alimlərimiz, jurnalistlərimiz, dilçilərimiz Nəsimi barədə məqalələrini xarici ölkələrin qəzet və jurnallarında da dərc etdirirlər. Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi Məsmə İsmayılova bu ilin fevral ayında şairin qəzəllərini ingilis dilinə tərcümə edərək Belçikada çap etdirib. Məsmə xanım onu da dildirdi ki, gələcək aylarda Nəsiminin qəzəllərini başqa ölkələrin qəzet və jurnallarına da göndərəcək. Bildirdi ki, bu barədə xarici naşirlərlə razılığa gəlib. Bütün bunlar mütəfəkkir şairimizə ümumxalq məhəbbətinin parlaq ifadəsidir. Milli iftixarımız olan böyük şair İmadəddin Nəsimi xalqımızın yaddaşında əbədi yaşayacaqdır.

**Vəli İlyasov,**
***"İki sahil"***

***Yazı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdikləri müsabiqəyə təqdim olunur.***